# Uşaqlara doğma ünvan

*Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasından reportaj*



Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına gedərkən yol boyu oranın köhnə kitabxanalar kimi rütubətli, nəmişlik iyi gələn, toz basmış kitablarla dolu, alaqaranlıq bir kitabxana olacağını düşünürdüm. Ürəyimdə uşaqları düşünürdüm ki, bu cür yerdə də kitab oxumaq olar?! Belə yerdə də kitab oxumağa uşaqlarda həvəs oyanar? Əksinə, olan-qalan həvəsi də bu rütubətin iyinin içində boğulub gedər. Sonra da deyirlər ki, uşaqlı-böyüklü kitab oxuyan yoxdu. Belə fikirlərlə bir də gördüm ki, Səməd Vurğun küçəsi 88 ünvanındakı göydələnə çatmışam. Gözüm elə orda-burda köhnə, Sovetdən qalma kitabxana axtarır. Bir məktəblinin təbəssümlə kitabxananın yerini göstərməsindən sevindim. Sevindim ki, kompyuter salonlarının yerini əzbər bilən uşaqlardan başqa, kitabxananı tanıyan uşaqlar da var. Əlqərəz, qalxdım kitabxanaya.

...Həm işıqlı, həm isti, həm doğma, həm gözəl. Valeh oldum.. Kitab rəfləri göyqurşağıdır elə bil. Nə qədər rəngarəng və rəngbərəng kitab var. İnanmıram ki, bura uşaq gələ, kitab oxumaq istəməyə. Bu kitabxana girişindən ta sonuncu rəfinə kimi istənilən uşağı kitab oxumağa "xoş gəlmisən" deyir. Nəinki uşaqları, deyərdim ki, lap böyükləri də. Ab-hava əsl mütailə ab-havasıdır. İşçi heyəti də ki həm ixtisasca, həm də daxilən peşəkardırlar, canla-başla işləyən əsl kitabxanaçıdırlar. Kitabxananın 9 şöbəsi, 5 bölməsi, 2 oxu zalı var.






Kitabxananın necə yarandığını, necə bu cür gözəl, olduqca gözəl səviyyəyə çatdırıldığını, hansı şöbələrin və ümumiyyətlə, kitabxana haqqında ətraflı məlumatı mənə müsahibim Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət işçisi, işini sevən, kitablara və oxuculara sevgi və qayğı göstərən Şəhla xanım Qəmbərova verdi.

Uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dili uğrunda daim mübarizə aparan Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firidun bəy Köçərlinin adını daşıyan bu kitabxana 1965-ci ildə yaradılıb. 2010-ci ildə kitabxananın qədim kitabxanaçılıq ənənələrinə söykənərək, müasir kitabxana tələblərinə cavab verən yeni binasına köçməsi həm uşaqları, həm də valideynləri xeyli razı saldı. Belə ki, uşaqlar ən müasir texnologiya və metodlardan istifadə edir, "Nağıl otağında" təşkil olunan "Nağıl saatları"nda təkcə öz nağıllarımızı deyil, dünya nağıllarını dinləyir, seyr edir, müzakirə aparır, dünyagörüşlərini təkmilləşdirirlər. "Nağıl otağı" dediyimiz bu otaq elə, doğrudan da, nağıl dünyasıdır. Uşaqların öz əlləriylə düzəltdiyi nağıl qəhrəmanları, dekorasiyalar bura xüsusi yaraşıq verir. Həm də buranın bir üstün cəhəti də var ki, uşaqlar nəinki peşəkar artistlərin qurduğu kukla tamaşalarına baxır, hətta özləri də bu cür səhnəciklər hazırlayıb həmyaşıdlarına təqdim edirlər. Bundan ötrü bu otaqda hər bir şərait var.

Bu kitabxanada görmə qabiliyyəti zəif və məhdud uşaqların da sağlam uşaqlarla birgə mütaliə etməsi, informasiya alması artıq xəyal yox, gerçəkdir. 2014-cü ildə Gənc Ana və Uşaqların Maarifləndirilməsi İctimai Birliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi və TİKA-nın Bakı Ofisinin əməkdaşlığı çərçivəsində görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün kitabxanada Dil kursları və İnformasiya mərkəzi açılıb. Həmin mərkəzdə görmə qabiliyyəti məhdud uşaqlar çox rahat bir şəraitdə mütaliə etmək şansı qazanıblar. Kitabxanada brayl əlifbasıyla yazılmış bir çox kitablar var.

Kitabxana Azərbaycan, türk, rus, ingilis hətta başqa dillərdə də kitablarla zəngindir. Burada xüsusi bölmədə ölkələr haqqında məlumat, onların atributları və həmin ölkələrin səfirlikləri tərəfindən kitabxana hədiyyə olunmuş öz dillərində nəşr olunan kitablar var.



Bir neçə il öncə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Bərpanəşr" layihəsinə start verilmişdir. Bu layihə çərçivəsində təkrar çapı həyata keçirilən kitablar ilk nəşr göstəriciləri olduğu kimi saxlanılmaqla yenidən çap olunmuşdur. Artıq 50-dən çox kitab "ikinci dəfə dünyaya gəlmişdir". Bu layihə üzrə işlər hələ də davam edir. Stenddə həmin kitablar sərgilənib. Oxucular onlardan da yararlana bilirlər. Uşaqlarını bura gətirən valideynlərin həmin kitabları necə nostalji hisslərlə götürüb oxuduğunu görmək elə də çətin deyil. Bu seriyadan Nizaminin "İlin fəsilləri", "Simnar", "Türküstan gözəlinin hekayəti", Füzulinin "Meyvələrin söhbəti" Xanımana Əlibəylinin "Mərcanqulu əfsanəsi", Puşkinin "Qızıl xoruz" və başqa kitablar yenidən nəşr olunaraq oxucuların ixtiyarına verilmişdir. Həmin kitabları orijinal şəkildə, lakin yeni qrafikaya ilə yeni nəşrdə çox maraqlıdır görmək.

Kitabxananın digər fəaliyyətini də nəzərə çapdırmaq istəyirəm. Deməli, 2013-cü ildən kitabxana "Uşaq ədəbiyyatı xəzinəsindən" seriyası adı altında "Firidun bəy Köçərli. Biblioqrafiya", "İlyas Tapdıq", "Abdulla Şaiq" kimi kitabları da nəşr etmişdir. Bu kitabların ərsəyə gəlməsindən ötrü böyük əziyyət çəkilmiş, arxivlər qaldırılmış, cild-cild kitablardan qeydlər götürülmüşdür. Nəticədə bu cür dəyərli biblioqrafik kitablar işıq üzü görmüşdür. Bu sahədə də işlər davam etməkdədir. Bundan əlavə, "Ceyhun Hacıbəyli - 125", "Əli Vəliyev - 110", "Nəriman Həsənzadə - 85", "Qabil İmamverdiyev - 90", "Molla Nəsrəddin - 110" biblioqrafik göstəriciləri də çap olunmuş və elektron variantları da kitabxananın saytına yerləşdirilmişdir.

Bu gözəl kitabxananın əməkdaşları 2001-2003-cü illərdə Açıq Cəmiyyət İnstitutunun kitabxana proqramında iştirak etmiş, 3 layihəylə qrant qazanmışlar. Həmin layihələr əsasında kitabxanada "İnternet sinif otağı", "Biləyən" multi-media zalı açılaraq uşaqların istifadəsinə verilmişdir.

**Davamı səhifə 17-də**










# Uşaqlara doğma ünvan

## Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasından reportaj

*(Əvvəli səhifə 16-da)*

Bununla yanaşı, kitabxanada fəaliyyət göstərən "Kompüter savadlılığının əsasları", "Mətnlərin sürətlə yığılması" kurslarında uşaqlar aktiv iştirak etmiş, internetdən istifadə etməklə geniş informasiya imkanlarına yiyələnmişlər.

2005-ci ildən kitabxana fondunun bütövlükdə elektron informasiya daşıyıcılarına köçürülməsi və elektron kataloqun yaradılması proseslərini müvəffəqiyyətlə həyata keçirməsində böyük işlər görülmüşdür. Belə bir layihəni gerçəkləşdirmək üçün kitabxana AKİS proqram təminatından istifadə etmişdir.



Dövlət Proqramı çərçivəsində oxucuların informasiya tələbatının ödənilməsi ilə bağlı həmin bu kitabxana uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisini - "Uşaq kitab Karvanı" layihəsini də uğurla həyata keçirdi. 2011-ci ildən həmin layihə çərçivəsində artıq 22 rayona Kitab Karvanı yola düşmüş, 17270 nüsxə kitab hədiyyə edilmişdir. Bunun nəticəsində, əyalətlərdəki kitabxanalar da yeni kitablar göndərilib və oralarda yaşayan kiçik həmvətənlərimiz də həmin al-əlvan, yeni kitablardan bəhrələnə bilirlər.

Bu ölkədaxili uğurdan başqa, İsveçrə, Rusiya, Türkiyə, Ukrayna, Almaniya, Bosniya, Herseqovina, Sloveniya, Moldova, Serbiya, Gürcüstan kitabxanaları ilə Köçərli adına Uşaq kitabxanasının əlaqə yaranmış, həmin ölkələrin uşaq kitabxanalarına Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir. Bununla ölkələr arasında ədəbi-mədəni əlaqələr möhkəmlənib və bu gün kitab mübadilələri nəticəsində xalqlar bir-birini daha da yaxından tanıyırlar.

Kitabxananın digər bir fəaliyyətini də işıqlandırmaq istəyirəm. Bütün bu işlərlə yanaşı, F.Köçərli adına Uşaq Respublika kitabxanası həm də uşaqlar üçün çox nəfis tərtibatda "Göy Qurşağı" adlı jurnal da nəşr edir. Jurnalda məktəblilərin dünyagörüşünün inkişafı, vətənpərvərlik hisslərinin daha da güclənməsi, təhsilə marağın artmasından ötrü müxtəlif məqalələr, hekayələr, şeirlər yer alır. Təqvimdəki əlamətdar günlər, onların tarixi haqqında məlumatlar əks olunur. Qeyd edim ki, bu uşaq jurnalı respublikamızın ən ucqar kəndlərinə belə çatdırılır ki, oradakı uşaqlar da həmin jurnaldan öz töhfələrini ala bilsinlər.

İndi internet dövrü olduğundan, demək olar ki, hər şey "elektronlaşır". Kitabxananın da çox gözəl, hər bir məlumatla zəngin saytı var. Oxucular ondan istifadə edə bilərlər. Saytın "Elektron kataloq" bölümündə oxucu evdən bayıra çıxmadan axtardığı kitabı axtarış sisteminə daxil olmaqla kitabxanada olub-olmadığını öyrənə bilər. Saytın "Bizə kitab gəlib" bölməsində kitabxanaya daxil olan ən yeni kitablar haqqında məlumatı bir neçə saniyə ərzində almaq olar. Həmçinin "Göy Qurşağı" jurnalının da istənilən nömrəsini saytdan pdf formatda oxumaq mümkündür.

Bunu da nəzərinizə çatdırıraq ki, burada uşaqlar kor-koranə kitab götürüb oxuya bilməzlər. Kitabxananın peşəkar kadrları uşaqların yaş səviyyəsinə uyğun olmayan kitabları onlara vermirlər. Əksinə, onların dünyagörüşünə, yaş səviyyəsinə uyğun kitabları məsləhət görməklə, düzgün yola istiqamətləndirirlər.

Bu kitabxananın ən böyük xidməti və uğurlarından biri də saytda "Multimedia" bölümünün "Səsli nağıllar" səhifəsidir. Bura müxtəlif nağıllar daxil edilmişdir ki, onlar səsli formatdadır. Bu, görmə qabiliyyəti məhdud uşaqlar üçün əvəzolunmaz bir hədiyyədir. Həmin uşaqlar kitabxanaya gəlmədən belə, öz evindəcə istədiyi nağılı rahatlıqla dinləyə və beləliklə mütaliəli ola bilir. Həmin bölümün "Danışan kitablar" səhifəsində həm Azərbaycan, həm də rus dillərində bir çox nağıl kitablarının şəkilli pdf variantı yüklənilmişdir. Hərəkət məhdudiyyəti olan uşaqlar da həmin kitabları artıq əziyyət çəkmədən evdə oxuya bilərlər.

Qeyd edim ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının iş təcrübəsi və fəaliyyəti beynəlxalq aləmdə tanınmış nüfuzlu dərgilərdə - "BAE", "Bookbird" dərgilərində işıqlandırılmışdır.



Kitabxananın vestibülündə "Cırtdanın poçt" qutusu fəaliyyət göstərir. Bura gələn balaca dostlarımız kitablarla bağlı arzularını məktuba yazıb həmin bu poçta atırlar. Ayda bir dəfə poçt oxunulur, ən maraqlı məktub müəllifinin arzusu yerinə yetirilir. Bunun özü də gənc oxucu dostlarımız üçün stimuldur.

Kitabxananın kitablar toplanan bölməsində də oldum. Minlərlə kitab rəflərdə par-par yanırdı. Tərtəmiz, tozsuz, necə deyərlər, gül kimi... Bu cür şəraitli, hər cür kitabla, internetlə təmin olunmuş kitabxananı görüb çox sevindim. Kitabxanadan ürəyimdə böyük bir günəşlə çıxdım. əziz oxucu, siz də uşaqlarınızla Firudin bəy Köçərli adına Uşaq Respublika Kitabxanasından beyninizdə və ruhunuzda kitablardan doğan günəşlə qayıdın.

**Xanım Aydın**



